# YAXŞILIQ OLMASA İTƏR ADAMLIQ



*Sahib ƏLİYEV*

## SƏNƏ VƏTƏN DEDİM AĞLIM KƏSƏNDƏN

Sənə Vətən dedim ağlım kəsəndən,
Saldım ürəyimə səni birinci.
Sənə bağlılığım artırdı mənim,
Sinəmdə dil açan hər bir sevinci.

Sevindim səninlə həmdəm olmağa,
İsti qucağına alışdım, Vətən!
Mənim ilhamım da, təbim də sənsən,
Mənim kağızım da, qələmim də sən.

Ruhumsan, canımsan, qanımsan mənim,
Nəfəssən, gəzirsən ciyərlərimdə.
Havan bir balaca tutqun olanda,
Ağrıyır içimdə ciyərlərim də.

Yoxdu sənin qədər sevdiyim heç nə,
Sən mənim sən boyda məhəbbətimsən.
Mənim bu dünyaya məhəbbətim də
Sənə məhəbbətdən doğulub, Vətən!

## BU ÖMÜR SEVGİDİ, HƏYATSA BİR GÜL

Soyuqdan qorxuruq, amma ruhumuz,
Sevinir dağlara qar düşən kimi.
Ağacın budağın əysə də barı,
Solur, üstündəki bar düşən kimi.

Hər şeyin bir özəl xasiyyəti var,
Eyni cür olmayır bütün adamlar.
Tarın havasına məftun olanlar
Darıxır, könlünə tar düşən kimi.

Bu ömür sevgidi, həyatsa bir gül,
Sevgisiz bir insan xoşbəxt deyil, bil.
Deyirsən, sevmirəm, bəs niyə, könül,
Gülürsən, yadına yar düşən kimi?

Ömrünü namusla, ar ilə yaşa,
Arsız adamlarla vermə baş-başa.
Adamlıq heç olur adamla qoşa,
Adamın içindən ar düşən kimi.

## DÜNYANI ÜRƏKDƏN SEVƏN ADAMLAR

Dünyaya gəldiyim gündən başlayıb,
Hər gün bu dünyanı tərifləyirəm.
Nadan elə bilir - nəyə görəsə,
Dünyanı təriflə hərifləyirəm.

Yox, belə deyildi məsələ, dostlar,
Dünya bir anadı, biz isə övlad.
Anaya məhəbbət güclü olmasa,
Övlad aça bilməz quş kimi qanad.

Dünyaya gəlmişik qanad açmağa –
Uçaq səmalarda bir qartal kimi.
Ya da ki, bu dünya sədəfli sazdı,
Biz isə bu sazın üstündə simi.

Sim sakit qalanda sazın üstündə,
Saz hardan bilsin ki, onu sevən var.
Dünyaya təriflə bildirir eşqin
Dünyanı ürəkdən sevən adamlar.

## MAHNILARIN YAZ YAĞIŞI

œ Ł ° ı ß

Özün - sazın pərdəsisən,
Səsin - tarın dinən simi.
Bülbül də heç ötə bilməz,
Bağça-bağda sənin kimi.

Oxuyursan gah astadan,
Gah da zilə çıxır səsin.
Boğazında, de, nə var ki,
Təngiməyir, qız, nəfəsin?

Səsindəki zəngulələr,
Gör necə də gəlir xoşa;
Hamı deyir, oxu, gözəl,
Həvəsimiz gəlsin cuşa.

Mahnıların - yaz yağışı,
Çimizdirir ruhumuzu.
Durub qəmdən oxuyanda,
Səsin olur mələr quzu.

Gənc yaşında adın-sanın
Düşüb indi dildən-dilə.
Gör necə də yaraşırsız -
Bu el sənə, sən bu elə.

## ARZULAR OLMASAYDI...

Arzu – arzudan şirin,
Arzu – arzudan uca.
Arzuyla yaşayırıq
Biz ömrümüz boyunca.

Düşünürük, filan vaxt
Bir filan iş olacaq.
O, filan iş olsa, bəxt
Sevinc ilə dolacaq.

Günlər, aylar ötüşür,
Gəib çıxır həmin gün.
Elə o gün açılır
Sinəmizdən bir düyün.

Qovuşuruq arzuya,
Bəxtəvər oluruq biz...
Arzular olmasaydı,
Pas atardı ömrümüz.

## ALDADIR, GÖRÜRSƏN, ADAMI ÜMİD

Ümiddən doğuldum, böyüdüm bir vaxt,
Ümidlə yaşadım, ümidlə durdum.
Bəzən elə oldu xəyallarımda
Ümiddən arzuma saray da qurdum.
Yaşadım beləcə, durdum beləcə,
Başladım ümidlə göydə uçmağa.
Yaman tələsirdim yerdən ayrılıb,
Gedim al Günəşi, Ayı qucmağa.
Elə inanmışdım onda ümidə,
Mən onu ən böyük dayaq bilirdim.
Başımı qatırdı verdiyi vədlər,
Bu şirin vədlərlə deyib-gülürdüm.
Demə, yalan imiş onun vədləri,
Ümid dönük imiş, demə, sözündə.
Ona bel bağlayıb, inanan insan,
Qalırmış çox zaman çölün düzündə.
İstəyin qəlbində qoyurmuş, demə,
Onun arxasınca düşən insanın.
Onu məhkəməyə verərdim, əgər
Olsaydı həyatda belə bir qanun.
Tutur qanunların olmamağından,
Aldadır, görürsən, adamı ümid.
Aldada-aldada qoydu içimdə
Mənim də dərdimi, qədamı ümid.

## BALASI ÖLMÜŞ CEYRANA

Hardan gəldin, ana ceyran,
Gözlərində dərd bükümü?
Mənə elə qəmli baxdın,
Artırdı bu, qəm yükümü.
Xatırladım o günləri,
Yaddaşıma düşdü balam.
Düşünürdüm, ondan sonra
Bu dünyada çətin qalam.
Qaldım.., ancaq yanır içim,
Əriyirəm damla-damla.
Niyə ayrı düşməliydik
Sən balanla, mən balamla?
Bala dərdi ağır olur -
Bələnirsən daim aha.
Ceyran, axı, neyləmişdik,
Bu dünyada biz Allaha?

## GƏL GEDƏKİNSANLAR GUR OLAN YERƏ

Deyirsən, gəl gedək xəlvət bir yerə,
Orda bizdən başqa olmasın heç kəs.
Yox, gülüm, heç kəsi görmədiyim gün,
Bu dünya gözümdə olur bir qəfəs.
Sevirəm həmişə mən gümrahlığı,
Gümrahlıq olanda ruhum da artır.
Ürəyim, görürsən, həmişə məni
Gümrahlıq gur olan tərəfə dartır.

Gümrahlıq gur olan yerdə, deyirlər,
İnsan rahat olur ömrü boyunca.
Gəl gedək insanlar gur olan yerə,
Şadlanaq doyunca, gülək doyunca.

## O, ADAM DA BİLDİ

Birinin pulu itmişdi,
tapdım onu.
Bilirsiz, nədən bildim
bu pulun kimin olduğunu?
Pul bağlamasının üstündə
bir sənəd vardı.
Oxuyan kimi
ayaqlarım məni
həmin sənədin üstündə
yazılmış ünvana apardı.
Verdim o pulu öz sahibinə -
sevindi, güldü.
Mənə qalan qazanc o, oldu ki,
bu dünyada
yaxşı adamların olduğunu
o adam da bildi.

## YAXŞILIQ OLMASA İTƏR ADAMLIQ

Yaxşılıq qəlbimi, gör necə alıb,
İçimdə özünə rahat yer salıb...
Yaxşılıq, deyirlər, Əlidən qalıb,
Hamıya yaxşılıq edirəm indi.

Yaxşılıq mənimçin - yaxşı adamlıq,
Yaxşılıq itsə, dost, bitər nadanlıq.
Yaxşılıq - işıqdı, pislik - qaranlıq,
Pisliyin bağrını didirəm indi.

Yaxşılıq, canıdı çiçəklərin də,
Qan qatır qanına ləçəklərin də.
Gəzirəm əkilmiş gül ləklərində
Əlimdə su dolu vedirəm indi.

Yaxşılıq – sinədə coşan bir ilham,
Yaxşılıq- gecələr yandırılan şam.
Yaxşılıq etməkdən yorulmamışam,
Bu yolla getmişəm, gedirəm indi.

## YAŞI DA ELƏ BİL CAVANLAŞDIRIR

Biri ağac əkdi, becərdi onu,
Yüz adam yığılıb barını yedi.
Bar yeyən adamlar sonra da bir-bir
O, ağac əkənə "çox sağ ol" dedi.

Baxdı "sağol"lara o, ağac əkən,
Ürəyi dağ oldu elə bil onun.
Bilirsiz, nə qədər xeyiri vardı
İnsanın aldığı hər bir "sağ ol"un?

Ruhu da qaldırır göylərə "sağ ol",
Həvəsi sinədə coşub-daşdırır.
Zəhmətin bəhrəsi olanda "sağ ol",
Yaşı da, görürsən, cavanlaşdırır.

## BƏXTİN VARSA...

Fərqi yoxdu – igidsən,
Ya da ki, arıq, cılız;
Bəxtin varsa, sevəcək
Səni istədiyin qız.
Qızlarda da belədi,
Mənim dediyim bu bəxt.
Gözəl olmayanın da
Bəxti açılır çox vaxt.
Deməli, nə gözəllik,
Nə çirkinlik əsasdı
Bəxt olan yerdə hər şey
Əfsanədi, əbəsdi.

## ƏMƏL PİS OLANDA

Biri uzanmışdı yorğan-döşəkdə,
Deyəsən, dünyadan köçüb gedirdi.
Əllərin qaldırıb Allaha tərəf,
Yalvarır-yaxarır, dua edirdi.

Deyirdi, Allahım, keç günahımdan,
Çıxmışam mən sənin yolundan hərdən.
Birinin evini xəlvət yıxmışam,
Birinə aşkarda zülm etmişəm mən.
Haramdan qaçmayıb tamahım heç vaxt,
Özgənin malına bel bağlamışam.
Qonşum ölüb evdə bu gün acından,
İtimçün sabaha pay saxlamışam.

Zülümkar olmuşam, bəli, həyatda,
Çoxunu döymüşəm malı döyəntək.
İndi fikirləşib, başa düşürəm,
Bu cür xətaları etməydim gərək.

Ancaq olan olub, keçən də keçib,
Dodağım ütülür indi ahımdan.
Qarşında əyilib, yalvarıram ki,
Allahım, nə olar, keç günahımdan...

Qurtardı Allaha yalvarışını,
Birdən gözlərində gilələndi yaş.
Yəqin başa düşdü - topuğa dəyir,
Həmişə arxadan atılanda daş.

Allah bu dünyaya gətirir bizi,
Yaxşı əməllərlə məşğul olaq biz.
Əməl pis olanda, kimə lazımdı
Öləndə edilən tövbələrimiz?

## ÇIXMAYIRMI GÜLMƏLİ?

Gecədən başlamışdım
papiros çəkməyə,
indi də ki, səhərdi.
Görən, niyə çəkirəm
bu qədər papirosu mən,
papiros, axı, deyirlər,
başdan-başa zəhərdi.
Demək,
zəhər çəkirəm mən -
bilə-bilə,
qana-qana.
Zəhər də korlayır işi
daxil olanda cana.
Özüm zəhərləyirəm öz işimi -
bilə-bilə, deməli.
Ağlı olan adamın
bu hərəkəti
çıxmayırmı gülməli?

## GET, ÖLÜMÜ GÖZLƏ, QARDAŞ!

Doğuldu, böyüdü, oxudu –
mühəndis oldu.
Qəlbi arzuyla doldu.
Elə bu arzuyla da
yol aldı istehsalata.
Xeyir verdi həyata.
Getdi zavoda hər gün –
adı düşdü dillərə.
Şərəf oldu, şan oldu,
şöhrət oldu ellərə.
Xeyir verdi vətənə
qucaq-qucaq, ətək-ətək.
İndi də yığılıb
iclas keçirirlər:
"Gəlin, bu adam...
O isə doluxsunur,
gilələnir gözündə yaş.
Təqaüdə çıxmaq,
o deməkdi -
get, evində
ölümünü gözlə, qardaş!..

?

Bəzi alimlər
biliyini
büruzə verməkdən ötrü
çalışıb,
nəsə icad edirlər -
hər gün bir yeni kəşf
çıxarırlar üzə.
Qürrələnirlər də hələ
kəşflərinin adını
bir-birinin ardınca
düzə-düzə.
Təzə bomba kəşfi kimi,
təzə raket kəşfi kimi...
Mən bu kəşfləri
qiymətləndirirəm
alimlərimizin
ən böyük səhfi kimi.
Kəşf edəndə onlar,
bu kəşflərin
düşünmürlər dalını.
Bir də gördün, bu kəşflər
kölgələdi alını.

**2019.**